

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 16 avqust 2023-cü il №61 (2773) https://mod.gov.az Qiyməti 30 qəpik


*Təlim*

## “Təlimdə də döyüş ruhu ilə iştirak edirik”



*Yaydı. İstidi. Bürküdü. Hamı əmindir ki, qışda soyuq-sazaq, yayda isti-bürkü xidməti vəzifələrini yerinə yetirənə yaxın düşə bilmir. Bu, Vətənə sevginin - Vətən sevgisinin qüdrətidi. Bunu 44 günlük Vətən müharibəsindən əvvəl dekabrın sonlarında Murovdağda müşahidə eləmişəm, Gədəbəydə, dəniz səviyyəsindən min metrlərlə yüksəklikdə də, yayın "qorabişirən"ində Haramı düzündə də, başqa ərazilərimizdə də. Hamı 30 il ruhumuzun fəslini arzulayıb. Ruhu rəvanlar bu fəsli təbiətdən gözləməyib, bilib ki, (və əmin idi ki!) bu fəsli Azərbaycan əsgəri gətirəcək. Dünya ictimaiyyəti Azərbaycan əsgərinin bu qüdrətindən heyrətlənəcək. Torpaqlarımızın işğaldan qurtuluşuyla tamamlanan döyüşlərin sonuncu gülləsinə bu heyrətin başlanğıcı deyəcək...*

Təlimə bu düşüncələrin gözəlliyini yaşadığım anlarda təlim başlanır. Əsgərlər elə bil bir az əvvəl gördüyüm əsgərlər deyil; hərəkətlərində inam var, davamlılıq var, qarşılıqlı anlaşma var və bu qarşılıqlı anlaşılma sözsüz yerinə yetirilir. Əminəm: əsgər əsgəri baxışından anlayır. Buna da qüdrət deyirəm.

"Topun "döyüşə" və "səfərə" hazırlanması" mövzusunda keçirilən təlimi maraqla izləyirik. Bizə elə gəlir ki, 2020-ci il sentyabrın 28-idi. Bu divizion da döyüş əmrini yerinə yetirir. Düşmənin komanda məntəqəsinin koordinatları verilib. Əsgərlərin baxışlarında dönməz bir qətiyyət hiss olunur. Bu qətiyyət yüksək döyüş hazırlığının yaratdığı döyüş əzmidi, qələbə ruhudu. Onlar topu şərti düşmənin şərti komanda məntəqəsini artilleriya mərmisi ilə dağıtmağa hazırlayırlar. Hərəkətlər rəvandır. Hər mərhələ təlimata müvafiq müddətdə yerinə yetirilir. Top komandiri çavuş Taleh Tomayev növbəti əmrdən əvvəl top heyətinə müvafiq göstərişlər verir. Bu göstərişlər əmrin daha rəvan, daha səlis, təlimata müvafiq yerinə yetirilməsi üçündü. Göstərişlər nəticəsiz qalmır. Döyüş əmri bütün heyətin hərəkətlərində sezilməsi çətin olmayan bir inam yaradır. Bu inam əmrin yerinə yetirilməsinin təminatçısı olur. Döyüş əmrindən atəşin başa çatmasına qədər keçən müddət komandiri qane edir. Mayor Bəhruz Məmmədov razılıqla top heyətini süzür. Bizə elə gəlir ki, gerçək bir döyüş gördük. Top heyətinin hər birinin baxışında Göyəzənə boy verməyən qürur var. Bu qürur sevincdir: "Komandirimiz bizə inanır". Qalib əsgərlərin döyüş yolunun davamçılarına baxırıq. Bizə elə gəlir ki, bu əsgərlər 44 günlük Vətən müharibəsində iştirak edən artilleriyaçılarımızın döyüş əzmini, qələbə ruhunu, qətiyyətini, məsuliyyətini sədaqətlə davam etdirir...

Mayor Bəhruz Məmmədov İkinci Qarabağ müharibəsinin ilk günlərində düşmənin iki komanda məntəqəsini necə dağıtdıqlarını xatırladır və əsgərlərə baxır. Bu baxışlarda sevgi var, inam var, bir də etibar var:

- Təlim şərti döyüşdür. Şərti döyüş tapşırıqlarını da gerçək döyüş ruhu ilə yerinə yetirənlər yüksək döyüş hazırlığına malik olan əsgər kimi formalaşır. Müxtəlif mövzuları əhatə edən hər təlimin döyüş hazırlığının yüksəldilməsində əhəmiyyəti də həmişə bu baxımdan dəyərləndirilir. Divizionumuzla Müdafiə Nazirliyinin, Quru Qoşunları komandanının, birlik komandirinin müəyyənləşdirdiyi təlimlərdə də, hərbi hissədaxili təlimlərdə də məsuliyyətlə iştirak edirik. Nəzəri bilikləri mənimsəmiş əsgərlərimiz təcrübi vərdişləri təlimlərlə mənimsəyir, peşəkarlaşırlar.

Əsgərlər xoş ovqatla göy üzünə baxır, mən əsgərlərə, onların Murova boy verməyən inamına, inamı ilə qoşa dayanan sevincinə, bu sevincin haləsinə dönən sevgisinə. Bu sevgi Vətənə sevgidi...

- Biz həmin əsgərlərin davamçılarıyıq. Biz də onlar kimi əmri qətiyyətlə yerinə yetiririk. Təlimlərdə özümüzü döyüşdəki kimi hiss edirik. Komandirimiz deyir ki, bu, əsgər üçün olduqca vacib şərtdir. Əsgər hər təlimdə qarşıya qoyulan tapşırıqları gerçək döyüş məsuliyyəti ilə yerinə yetirməlidir. Əminəm ki, düşmən təxribata meyillənsə, onların qarşısını kəsmək bizim diviziona tapşırılsa, döyüş əmrini yüksək məsuliyyətlə yerinə yetirəcəyik, - çavuş Taleh Tomayev belə deyir.

Əsgər Aqşin Abdullayev hərbi xidmətin ilk aylarını bu günün xidmətindən xatırlayır:

- İlk təlimlərdə nəzərdə tutulan tapşırıqları yerinə yetirirdik, ancaq komandirimiz qarşılıqlı fəaliyyətimizi bəyənmirdi. Təlimin tələbləri ilə bağlı verilən əlavə biliklər əhəmiyyətli olmuşdu. Bir neçə təlimdən sonra qarşılıqlı fəaliyyəti də peşəkarlıqla öyrəndik.

Əsgər Rəsul Abdullayev deyir ki, hərbi xidmətin ilk vaxtlarında bizə də gərəkli hərbi biliklər öyrədilmişdi. Bu biliklər müxtəlif təlimlərlə vərdişlərə, bacarığa çevrilib. Təlimlər peşəkarlığımızı yüksəldir. Biz də topun istismar xüsusiyyətlərini öyrənmişik. Aqşinin sözünün qüvvəti, ilk təlimdə hamımız həyəcanlı idik. Bizə elə gəlirdi ki, bildiklərimizi də unutmuşuq. Onda komandirimiz Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) ilk çöl çıxışlarını xatırladaraq dedi ki, biz də ilk təlimdə həyəcanlı idik. İlk şərti tərəfi nişan aldıq. Komandirimiz heç birimizi danlamadı. Tövsiyələrini bildirdi. Bu, bizim öyrəndiklərimizin də, öyrənəcəklərimizin də düsturuna döndü. Növbəti əmri bir qədər ləngliklə də olsa, dəqiq yerinə yetirdik. Bu, bizim son çətinliyimiz oldu. Komandirimizin dedikləri bizim həyəcanımızı sovuşdurdu. Biz növbəti şərti atışı komandiri razı salacaq səviyyədə yerinə yetirdik.

Əsgərlərin dedikləri mənə bir gerçəkliyi yenidən yaşadır: əsgərlər təlimi öyrənmə prosesinin nəinki davamı bilir, həm də onu tamamlayan proses hesab edir.

Əsgər Sənan Şükürov müharibənin ilk vaxtlarında Füzuli uğrunda gedən döyüşlər haqqında eşitdiklərindən danışır:

- Bölməmizdə müharibə iştirakçısı olanlardan İkinci Qarabağ müharibəsinin təəssüratlarını maraqla dinləyirik. Bunların hər biri Vətən müharibəsinin tarixidir. Biz artilleriyaçı olduğumuz üçün zabitlərimiz bizə daha çox artilleriyaçıların döyüşlərindən danışırlar.

Əsgərlər zabitlərin, gizirlərin və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının İkinci Qarabağ müharibəsində iştirakını qürurla xatırlayırlar. Dünənlərlə bağlı olan bu qürur sabahların qürurudu:

- 44 günlük Vətən müharibəsində bizim hərbi hissə də iştirak edib. Hərbi hissənin şəxsi heyəti neçə-neçə yaşayış məntəqəsinin işğaldan azad edilməsində, düşmənin neçə-neçə komanda məntəqəsinin dağıdılmasında, döyüş texnikalarının, canlı qüvvəsinin məhv edilməsində qətiyyətlə döyüşüblər. Biz hərbi xidmətdə onların döyüşlərini də sevgilərlə öyrənirik. Bizdən sonra da müharibə tarixi kimi həmişə öyrəniləcək, - əsgər Rəsul Abdullazadə belə deyir.

Əsgər Sənan Şükürov deyir ki, mərminin atışa vaxtında hazırlanması da, hədəfin dəqiq nişan alınması da, atışın vaxtında aparılması da, hədəfin dəqiq vurulması da top heyətinin hər üzvündən eyni dərəcədə asılıdır. Ona görə öyrədilənləri mükəmməl öyrənir, təlimlərlə təkmilləşdiririk.

**(Ardı 3-cü səhifədə)**

# Döyüş növbətçiliyi yüksək səviyyədə təşkil olunur

*Hərbi xidmətin düzgün təşkili hərbi qulluqçuların vəzifə borclarını məsuliyyətlə, vaxtında yerinə yetirməsinə şərait yaradır. Bu, mahiyyət etibarilə ordunun döyüş hazırlığı ordu quruculuğunun dönməzliyi deməkdir.*



Birlik və birləşmələrdə döyüş hazırlığını yüksəltmək istiqamətində görülən müxtəlif tədbirlər Müdafiə Nazirliyinin təsdiq etdiyi hazırlıq planı əsasında tənzimlənir. Belə tədbirlər digər tədbirlərlə birlikdə ordu quruculuğu üçündür.

Birinci yarım ilin yekunlarına görə birliyin taborları arasında döyüş növbətçiliyinin təşkili, aparılması və digər hərbi tapşırıqların yerinə yetirilməsi yoxlanılıb. Bu, döyüş hazırlığının daha da yüksəldilməsi istiqamətində olduqca vacib bir tədbir kimi həyata keçirilib. Səlahiyyətli komissiyanın üzvləri taborlarda hərtərəfli baxış keçirib, hər taborun müxtəlif istiqamətlər üzrə fəaliyyətinin səviyyəsini müəyyənləşdirib. Mayor İbrahim Qasımov bu tədbirin bilavasitə ordu quruculuğunda gərəkliyini bildirdi:

- Bu tədbir təkcə taborlararası qeyri-rəsmi yarış mahiyyətli tədbir deyil, o, həm də hərbi hissənin döyüş hazırlığının müəyyənləşdirilməsində vacib bir tədbirdir. Belə baxışlar olmasa da, döyüş növbətçiliyi yüksək səviyyədə aparılmalıdır, aparılır da. Həm də işğaldan azad edilmiş ərazidə, düşmənlə yaxın məsafədə. Düşmən düşmənçiliyindən əl çəkmirsə, yenə işğala meyil edirsə, üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirmirsə, taborlarda döyüş növbətçiliyi daha məsuliyyətlə təşkil olunmalıdır. Xidmət etdiyim taborda bu amilə həssaslıqla hərbi xidmətin vacib bir mərhələsi kimi yanaşılır.

Kapitan Xalid Bayramov bu məqama bir qədər əhatəli münasibət bildirdi:

- Taborun yerinə yetirdiyi hərbi tapşırıqları əsgərlər icra edirlər. Bu baxımdan taborda döyüş növbətçiliyinin təşkili səviyyəsi əsgərin döyüş hazırlığı, məsuliyyəti, döyüş növbətçiliyi aparma bacarığı ilə müəyyənləşdirilir. Xidmət etdiyim taborda hər əsgərin fərdi döyüş hazırlığı yüksək səviyyədə olduğuna görə taborun da döyüş hazırlığı yüksəkdir. Ona görə tabor istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir.

Birlik üzrə birinci yarım ilin yekunlarına görə bu tabor birinci yerə layiq görülüb, birliyin bu nominasiyalar üzrə kuboku bu tabora verilib, yüksək xidməti nəticə dəyərləndirilib. Baş gizir Zal Əkbərov qürurla bildirdi ki, tabor döyüş tapşırıqlarını yüksək məsuliyyətlə yerinə yetirməyi bacarır, buna qadirdir. Bu kubok bizim məsuliyyətimizi daha da artırır. Əsgərlərimiz 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazanmış döyüşçülərin davamçıları kimi məsuliyyətlə, Vətənə sədaqətlə xidmət edirlər. Bu xidmətin mahiyyəti də Zəfəri yaşatma, davam etdirmə niyyətidir.

Birlik üzrə döyüş növbətçiliyinin təşkilində, digər hərbi tapşırıqların Nizamnamələrin tələbləri əsasında yerinə yetirilməsində fərqlənən tabor yüksək döyüş hazırlığı ilə istənilən döyüş əmrini yerinə yetirmə qüdrətindədir.

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

## Mövqelərimiz atəşə tutulub

Avqustun 13-də saat 16:20-də Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Mollabayramlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

* * *

Avqustun 13-də saat 22:45-dən avqustun 14-ü saat 07:05-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca və Dəvəli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Mollabayramlı və Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Bölmələrimiz tərəfindən cavab tədbirləri görülüb.

* * *

Avqustun 14-də saat 19:25 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən atəş mövqelərinin dəstəyi ilə Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Mollabayramlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərinin qarşısında təxribat məqsədilə mühəndis işləri görməyə cəhd göstəriblər.

Aparılan işlərin dərhal dayandırılması və atəş nöqtələrinin susdurulması məqsədilə ordumuzun bölmələri tərəfindən təxirəsalınmaz tədbirlər görülüb.

## Ermənistanın sərhəddə hərbi texnika yığması sülh prosesinə böyük təhlükə yaradır

Ermənistan silahlı qüvvələrinin bölmələri son zamanlar Azərbaycan Ordusunun Kəlbəcər, Xocavənd, Basarkeçər rayonları istiqamətində yerləşən mövqelərini atəşə tutublar.

Mövzunu AZƏRTAC-a şərh edən ehtiyatda olan polkovnik, Qarabağ müharibəsi və Silahlı Qüvvələrin veteranı, hərbi ekspert Şair Ramaldanov qeyd edib ki, hazırda Azərbaycan sərhəddə baş verən məsələlərə humanist yanaşma göstərir, beynəlxalq normalar çərçivəsində alternativ təkliflər verir. Lakin görülən işlər Ermənistan tərəfindən layiqincə dəyərləndirilmir.

"Ermənistanın Laçın yaxınlığında sərhəddə hərbi texnikasını yığması, şəxsi heyətin sayının artırılması həmin bölgədə yaşayan insanlar, eyni zamanda, bölgədəki sülhün təmin olunması istiqamətində atılan addımlar üçün böyük təhlükə yaradır. Son günlərdə Kəlbəcər, Xocavənd, Basarkeçər rayonları istiqamətində yerləşən mövqelərimiz erməni silahlı qüvvələri və bölgədə yaşayan separatçılar tərəfindən atəşə tutulur. Təəssüflər olsun ki, Azərbaycan-Ermənistan arasında sülh bağlamaq üçün vasitəçilik edən beynəlxalq təşkilatlar hazırda gedən prosesə adekvat münasibət bildirmirlər. Hətta bəzən media qurumlarından istifadə edərək beynəlxalq ictimaiyyətin gözündə Azərbaycanı mənfi obraz kimi təqdim edirlər. Onlar Azərbaycan tərəfini Qarabağda yaşayan ermənilərə qarşı guya "humanitar fəlakət" yaratmaqda günahlandırırlar. Bu yanaşma qətiyyən yalandır. Hazırda Cənubi Qafqaz regionunda sülhün bərqərar edilməsi istiqamətində gedən proseslər birmənalı olaraq Azərbaycanın öhdəliyindədir", - deyə hərbi ekspert bildirib.

Ehtiyatda olan polkovnik əlavə edib ki, Nikol Paşinyan çıxışında Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tam şəkildə tanıdığını və Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdığını etiraf edib. Qarabağ da məhz həmin əraziyə daxildir. Lakin ermənilər təxribat törətməklə bölgədəki sülhün pozulması istiqamətində addımlar atırlar. Laçın istiqamətində yığılan texnika, artırılan hərbi heyətin sayı Ermənistan tərəfinin güc nümayiş etdirmə siyasətinin bir parçasıdır və şou xarakteri daşıyır. Ordunu sərhəd bölgəsinə açıq şəkildə yığmaq prosesləri adətən gizli şəkildə həyata keçirilir. Əgər onlar öz güclərini açıq şəkildə nümayiş etdirirlərsə, müasir standartlara cavab verən Azərbaycan hərbi texnikasının erməni ordusunu darmadağın etmək potensialına malik olduğunu da bilməlidirlər. Azərbaycanın "Dəmir yumruğ"u yerindədir və istənilən halda onları əzmək potensialındadır. Biz bunu 44 günlük Vətən müharibəsində dəfələrlə görmüşük.

"Hazırda Azərbaycan Ordusu sərhəddə baş verə biləcək hər hansı bir təxribata, atəşkəsi pozan mövqelərə adekvat cavab verir və bölgədə yaranacaq təhlükənin qarşısına almağa qadirdir. Ermənilərin son təxribatçı fəaliyyəti sülhün tərəfdarının Azərbaycan olduğunu açıq şəkildə göstərir. Eyni zamanda Ermənistanın sülh müqaviləsinin imzalanması prosesini gecikdirir. Əgər Ermənistan sülh istəmirsə, atılan təxribatçı addımların cavabdehliyini Ermənistana daşıyır", - deyə Şair Ramaldanov vurğulayıb.

## Müdafiə Nazirliyinin məlumatı

Son günlər Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindəki qeyri-qanuni erməni silahlı birləşmələrinin və Ermənistan silahlı qüvvələrinin qalıqlarının aktivliyi müşahidə olunur.

Ərazidəki qeyri-qanuni birləşmələr və Ermənistan silahlı qüvvələrinin qalıqları tərəfindən döyüş mövqelərinin şəxsi heyət, silah-sursat baxımından gücləndirilməsi, eləcə də yeni müdafiə hədlərinin, səngərlərin, uzun müddətli fortifikasiya qurğularının hazırlanması və əraziyə minaların basdırılması müşahidə olunub.

Bundan başqa, qanunsuz hərbi birləşmələrin üzvlərinin Qarabağ iqtisadi rayonunun bir neçə yaşayış məntəqəsində müxtəlif təyinatlı döyüş texnikası, xüsusilə də hava hücumundan müdafiə və radioelektron mübarizə vasitələrini yerləşdirməsi, mülki əhalinin kütləvi şəkildə silahlandırması faktları da məlum olmuşdur. Planlaşdırılmış şəkildə atəş mövqeləri bir çox hallarda yaşayış evlərinin yaxınlığında yerləşdirilir.

Qeyd olunan fəaliyyətlərin dayandırılması barədə Azərbaycan tərəfinin tələblərinin dəfələrlə Rusiya sülhməramlı kontingenti vasitəsilə Ermənistan tərəfinə bildirilməsinə baxmayaraq, qeyri-qanuni erməni silahlı birləşmələrinin daha da aktivləşməsi və Azərbaycan ərazilərində intensiv döyüş hazırlığı tədbirlərini həyata keçirməklə yeni təxribatlara hazırlıq işlərini görməsi müşahidə olunur.

Bu kimi qanunsuz və təhrikçi fəaliyyətlərin bölgədə gərginliyin artmasına səbəb olduğunu nəzərə alaraq bildiririk ki, baş verə biləcək istənilən hadisələrə görə bütün məsuliyyət məhz Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşəcək.

## XİN: Azərbaycan ərazilərində qanunsuz yerləşdirilmiş radioelektron mübarizə vasitələri narahatlıq doğurur

Azərbaycanın suveren ərazilərində qanunsuz yerləşdirilmiş radioelektron mübarizə vasitələrinin istifadəsi xüsusi narahatlıq doğurur. Son həftələrdə "Azərbaycan Hava Yolları"nın mülki təyyarələri ilə yanaşı, xarici ölkələrin təyyarələri də onların təhlükəsizliyi üçün ciddi təhlükə yaradan radioelektron müdaxilələrə məruz qalıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında vurğulanıb.

Qeyd edilib ki, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycanın suveren ərazilərində hərbi quruculuq işləri və fəaliyyətin qeyri-qanuni şəkildə artırılması ilə paralel olaraq, son günlərdə Ermənistan tərəfindən delimitasiya olunmamış dövlət sərhədi boyunca növbəti hərbi avantüra məqsədli irimiqyaslı silah, digər hərbi texnika və şəxsi heyətin toplanması da müşahidə olunub.

"Yuxarıda qeyd olunanlar, 30 ilə yaxın müddət ərzində, 2020-ci ilin sentyabrınadək Ermənistana xas olan, danışıqların imitasiyası, son dəqiqələrdə əvvəlki öhdəliklərdən yayınmaq və konkret qərarlar qəbul etməkdən boyun qaçırmaq üçün danışıqların hər mərhələsində siyasi, hərbi və digər təxribatlar törətməyi ehtiva edən təcrübəni xatırladır", - deyə XİN-in bəyanatında bildirilib.

*Ordenli igidlərimiz*

# "Bir vaxtlar Şuşa uğrunda döyüşməyi arzulamışdım"



2003-cü ilin yaz günlərində Oğuz rayonunun Muxas kəndindəki orta məktəbin 9-cu sinfini bitirib C.Naxçıvanski adına Hərbi Liseyə üz tutan Məmmədov Bəhruz Tofiq oğlunun məqsədi hərbçi olmaq idi. Onun ürəyində bu peşəyə həvəs hələ kiçik yaşlarından oyanmışdı. Bəhruz illərcə əvvəl ürəyində özünə yer eləmiş bu arzusuna çatmaq üçün Bakı şəhərinə gəlmişdi. Biliyi, bacarığı yüksək səviyyədə olduğuna görə arzusuna çatacağına əmin idi. İmtahanların nəticələri elan olunanda sevinənlərdən biri də Bəhruz olmuşdu. Artıq ordumuzun gələcək zabiti olmaq arzusuna çatmışdı. 2003-cü il Bəhruz Məmmədov üçün çox yaddaqalan olmuşdu.

Gələcəyin zabiti qəbul olunduğu C.Naxçıvanski adına Hərbi Liseydə üç il təhsil aldı. Bu müddət ərzində həm dərslərini oxudu, həm də zəruri hərbi vərdişlərə yiyələndi. Oxuduğu kitablar, mənimsədiyi biliklər onu uğurlara doğru apardı. 2006-cı ildə Bəhruz Məmmədov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul oldu. 2010-cu ildə təhsilini uğurla başa vurub. "N" hərbi hissəsində taqım komandiri kimi xidmətə başladı.

İllər keçdikcə gənc zabit bacarığı və çalışqanlığı ilə hərbi xidmətdə böyük uğurlar qazandı. Söhbət zamanı onu da öyrəndim ki, mayor Bəhruz Məmmədov ordumuz üçün böyük uğurla başa çatan Aprel döyüşlərində də iştirak edib. Füzuli rayonunun Alxanlı kəndi istiqamətində vuruşub, üzərinə düşən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəlib. Düşmən mövqelərinə dəqiq zərbələr endirib. Əməliyyatlar zamanı göstərdiyi igidliyə görə komandanlıq tərəfindən vaxtından əvvəl "kapitan" hərbi rütbəsinə layiq görülüb.

Mayor Bəhruz Məmmədov 44 günlük Vətən müharibəsinin də iştirakçısıdır. Əks-hücum əməliyyatları zamanı komandanlığın onun qarşısına qoyduğu döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəlib. Qəhrəmanlıq tariximizə böyük hərflərlə yazılmış həmin günlərdən söz açan zabit dedi:

- Torpaqlarımızın uzun illərdən bəri erməni işğalında qalması bizi çox narahat edirdi. Yaxşı bilirdik ki, bu əraziləri düşmənlərdən azad etmək bizim müqəddəs borcumuzdu və bu borcu yüksək peşəkarlıqla yerinə yetirməyə hazır idik. 27 sentyabr 2020-ci ildə düşmənin bütün cəbhə boyu genişmiqyaslı təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başladı. Erməni qəsbkarları yeni ərazilərimizi işğal etmək məqsədilə mövqelərimizə hücuma keçdilər. Bütün gücümüzlə yurdumuzun müdafiəsinə atıldıq. Döyüşlərin elə ilk dəqiqələrindən düşmənə sarsıdıcı zərbələr vurduq. Ermənilərin hücumlarının qarşısı qətiyyətlə alındı. Bundan sonra komandanlıq əks-hücuma keçmək barədə əmr verdi. Azərbaycan Ordusunun şəxsi heyəti böyük cəsarət və igidlik göstərirdilər. Bölüklərimiz Füzuli rayonunun Əbdülrəhmanlı kəndi istiqamətində vuruşurdu. Yeri gəlmişkən deyim ki, ən ağır döyüşümüz də elə Əbdülrəhmanlı kəndi uğrunda oldu. İşğalçılar illərdən bəri idi ki, bu istiqamətdə kifayət qədər möhkəmlənmişdilər. Amma düşmən nə qədər möhkəmlənsə də, qarşımızda çox dayana bilmədilər. Dəqiq atəş zərbələri ilə yağıların müdafiə xəttini yarıb, ordu hissələrinin irəliləməsi üçün şərait yaratdıq. Aramsız və dəqiq artilleriya zərbələrindən sonra işğalçılar geri çəkilməyə məcbur oldular. Sonra Cəbrayıl, Xocavənd və mədəniyyət beşiyimiz olan Şuşa şəhəri istiqamətində irəlilədik. Hadrut qəsəbəsinin işğaldan azad olunmasında da hərbi qulluqçularımız böyük igidliklə döyüşürdülər. Həmin vaxtlar Şuşa uğrunda vuruşmağı arzulamışdım. Şükür, bu arzuma da çatdım. Şuşanın azadlığı uğrunda vuruşduğum günlər əbədi olaraq yaddaşımda yaşayacaq. Müharibənin ilk günündən bizimlə çiyin-çiyinə vuruşan Tomayev Qoşqar Seyran oğlunun cəsarətini xüsusi olaraq qeyd etmək istəyirəm. Uzun illər erməni işğalında qalmış torpaqlarımız məhz belə cəsur oğulların qəhrəmanlığı sayəsində azad olundu. Qoşqar müharibənin son gününədək igidliklə vuruşdu. Döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeninə layiq görüldü. Noyabrın 8-də şanlı ordumuz neçə illərdən bəri həsrətini çəkdiyimiz Şuşanı erməni işğalçılarından azad etdi. Bu döyüşlərdə ermənilər ordumuzun gücü, qüdrəti qarşısında aciz qalaraq geri çəkilməyə məcbur oldular. Demək olar ki, 44 günlük Vətən müharibəsində biz Ermənistan ordusunu məhv etdik.

Döyüşlərdə göstərdiyi igidliyə, şücaətə görə Məmmədov Bəhruz Tofiq oğlu Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeninə, "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medallarına layiq görülüb.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# "Təlimdə də döyüş ruhu ilə iştirak edirik"

**(Əvvəli 1-ci səhifədə)**

Əsgər Aqşin Abdullayev deyir ki, Füzuli istiqamətində düşmən ciddi müqavimət göstərirmiş, artilleriyası ilə, döyüş texnikaları ilə döyüşçülərimizin səngərlərdən döyüşə çıxmasına, irəliləməsinə imkan vermirmiş. Ağır döyüş gedirmiş. Komandanlıq düşmənin qruplaşmasını, müdafiə sistemini dağıtmağı indi mənim də xidmət etdiyim bu diviziona tapşırıb. Əmr qətiyyətlə, dəqiqliklə yerinə yetirilib. Mərmilərdən biri döyüşçülərimizin döyüşə-döyüşə irəliləməsinə imkan verməyən həmin tankın üstünə düşüb. Bu, düşmənin qətiyyətini çilik-çilik edib, müdafiəsi zəifləyib, geri çəkilməyə məcbur olub. Komandirimizin danışdığı döyüş təəssüratlarından bir daha əmin olduq ki, İkinci Qarabağ müharibəsində artilleriyamız döyüşlərdə qüdrət göstərib.

Top heyətinin topu döyüşə hazırlamasını da maraqla izləyirik, səfərə hazırlamasını da. Bütün hərəkətlərdə inam duyulur, yüksək peşəkarlıq duyulur. Belə peşəkarlıq İkinci Qarabağ müharibəsində düşmənin komanda məntəqələrini dağıtmışdı, iri birləşmələrini, döyüşənlərinə hərbi sursat daşıyan maşın karvanını məhv etmişdi. O döyüşləri, döyüşçülərimizə atəş dəstəyi verənlərin qəhrəmanlığını, peşəkarlığını xatırladan mayor Bəhruz Məmmədovun qüruru könüləyatımlı qürurdu: Azərbaycan Ordusunda əsgərlərin sələf-xələf sədaqəti Vətənə xidmətin tərkib hissəsi kimi yaşadılır. "Bugünkü təlimin hansı mərhələsini daha böyük istəklə yerinə yetirdiniz?" sorğuma bir anlıq cavab verən olmur. Az sonra Nicat Cəfərov deyir ki, bütün əmrləri yerinə yetirmək bizim vəzifə borcumuzdur. Topun atışa hazırlanması döyüşün başlaması olduğu üçün ona sevgimiz bir qədər fərqlidir. Topun səfərə hazırlanmasında da döyüş ovqatı var. Ancaq o, bir müddətdən sonra olur.

Bu fikirlər də Azərbaycan əsgərinin Vətən naminə döyüş əzminin, qələbə ruhunun ifadəsidir.



Təlim başa çatır. Top heyətinin topu səfərə hazırlamasını da, döyüşə hazırlamasını da təlimata uyğun müddətlərdə yerinə yetirməsi bir divizionun timsalında ordu quruculuğunun yüksək səviyyədə davam etdiyinin təsdiqidir. Əsgərlər öyrənir, öyrəndikləri təlimlərlə təkmilləşdirilir, peşəkarlıqları yüksəlir...

Yayın istisində-bürküsündə əsgərlər nizamnamələrlə müəyyənləşdirilmiş müddətlərdə topu "döyüşə" və "səfərə" hazırladılar. Zabitlər təlim tapşırıqlarını gerçək döyüş ruhu ilə yerinə yetirən əsgərlərin nəzəriyyədən bildiklərinin təcrübi tətbiqindən razı qalıblar...

Həzin-həzin meh əsir...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# Şərəfli yolun astanasında



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətinin bütün illərində ordu quruculuğu istiqamətində apardığı uğurlu islahatların və hərbçilərə göstərdiyi yüksək rəğbətin nəticəsində hərbçi peşəsi gənclərin ən çox sevdiyi və seçdiyi peşələrdən olub. Bu gün də müqəddəs peşə sahibləri cəmiyyətimizdə xüsusi yeri olan, sevgi bəslənən şəxslərdir. Leytenant Xəqani Məmmədov da belə gənclərdəndir. Çətin və şərəfli yolun astanasında olan Xəqanini erməni işğalından azad olunan ərazilərimizdəki hərbi hissədə tanıdım. Bölmənin şəxsi heyəti və komandirləri onun haqqında xoş sözlər dedilər. Nümunəvi xidmətindən, peşəsinə bağlılığından, şəxsi keyfiyyətlərindən ağızdolusu danışdılar. Haqqında ürəkaçan sözlər deyilən igidimizi tanımaq mənim üçün də maraqlı oldu. Onun hər cümləsindən Vətəninə və peşəsinə olan sevgisini hiss etmək heç də çətin olmurdu. Bir az söhbətləşdikdən sonra onun barəsində maraqlı məlumatlar öyrəndim.

Xəqani Məmmədov 1999-cu il iyulun 27-də Sabirabad rayonunun Poladtuğay kəndində anadan olub. Üçuşaqlı ailənin böyük övladı olan Xəqani 2005-ci ildə 251 nömrəli tam orta məktəbdə təhsil almağa başlayıb. İdmana böyük marağının olduğunu deyərək, bu sahədə qazandığı uğurlardan danışdı: "Uşaqlıqdan idmana marağım və həvəsim olub. Valideynlərimin də idman müəllimi olmasının buna təsiri böyükdür. İlk olaraq idmanın cüdo növü ilə məşğul olmağa başladım. Daha sonra üzgüçülük, kikboksinq, şahmat və qaydasız döyüşlə də məşğul oldum. Bu idman növləri arasında ən yüksək nəticəyə Şahmat üzrə nail oldum. Bu stolüstü idman növündə qazandığım dərəcələrdən sonra təhsilimi də bu üzrə davam etdirməyi qərara aldım. 2017-2021-ci illərdə Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasına qəbul olundum".

İdmanın döyüş hazırlığının tərkib hissəsi olduğunu deyən Xəqani qazandığı idman vərdişlərinin hərbi xidmətində köməyə çatdığını bildirdi. Qeyd etdi ki, fiziki hazırlıq hər bir hərbi qulluqçu üçün vacib keyfiyyətdir.

"Təhsilimi başa vurduqdan sonra "N" hərbi hissəsində hərbi xidmətə yollandım. Nümunəvi xidmət edib, bacarıqlı əsgər kimi formalaşmağı qarşıma məqsəd qoydum. Komandirlərimin hər bir əmrini ciddi səylə icra edir, onların tapşırıqlarını vaxtında yerinə yetirməyə səy göstərirdim. İdman sahəsində qazandığım vərdişlərim nümunəvi xidmətimdə çox kömək olurdu. Görürdüm ki, təlim-məşqlərdə verilən tapşırıqları cəld, çevik və dəqiq yerinə yetirmək üçün fiziki hazırlıq şərtdir. Ona görə xidmətim zamanı da idmanla məşğul olurdum. Hərbi xidmətə gəlməzdən əvvəl də hərbçi peşəsinə, hərbçilərimizə böyük rəğbət bəsləyirdim. Bu şərəfli peşəyə sevgim formalaşmışdı. Əsgərlikdə olarkən bu sevgim daha da artdı. Hərbi sirlərə və vərdişlərə yiyləndikcə, ordumuzun ürəkaçan şəraitini, şəxsi heyətin yüksək döyüş ruhunu, komandirlərimizin mənəvi keyfiyyətlərini gördükcə mən də hərbçi olmaq qərarına gəldim. Zabit olub Vətənin keşiyində şərəf və ləyaqətlə dayanacağım günün arzusu ilə xidmətimi davam etdirdim. Yuxarı komandirlərimə bu barədə məlumat verdim. Sənədlərim "Ehtiyat zabit hazırlığı kursu"na göndərildi. İmtahanlardan uğurla keçdim. Nəhayət, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Ehtiyat zabit hazırlığı kursu"nu bitirərək "leytenant" hərbi rütbəsi aldım", - Xəqani dedi.

Erməni işğalından azad olunan ərazilərimizdə xidmət etməkdən qürurlandığını bildirən leytenant Xəqani Məmmədov qüdrətli ordumuzun peşəkar zabitlərindən olmağı qarşısına məqsəd qoyduğunu vurğuladı. "Əyninə hərbi mundir geyinən hər kəs üçün Vətəninə, xalqına olan ehtiram onun şərəfidir", - deyən şərəfli yolun astanasında olan gənc zabitimizlə söhbətimizi sonlandırıb, ona xidmətində uğurlar arzulayırıq.

**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda Hərbi andiçmə mərasimləri keçirildi



Müdafiə nazirinin təsdiq etdiyi 2023-cü ilin hazırlıq planına uyğun olaraq, Quru Qoşunları, Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava Qüvvələri, digər qoşun növləri və əlahiddə hərbi hissələrdə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində gənc əsgərlərin andiçmə mərasimləri keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimlərdə şəhid ailələrinin üzvləri, hərbi hissələrin komandanlığı, yerli icra orqanları və ictimaiyyət nümayəndələri, veteranlar, əsgər valideynləri iştirak ediblər.

Hərbi rituallara uyğun olaraq döyüş bayrağı sıra meydanına gətirildikdən və Dövlət Himni ifa edildikdən sonra tədbirlər açıq elan olunub.

Öncə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra gənc əsgərlər təntənəli surətdə Hərbi Andı qəbul edərək Vətənə sadiq olacaqlarına söz veriblər.

Təntənəli mərasimlərdə çıxış edənlər gənc əsgərlərə Vətənə, dövlətə və Ali Baş Komandana, Hərbi Anda sadiq olmalarını, nümunəvi, intizamlı xidmət etməyi, silah və texnikanın sirlərini dərindən öyrənərək döyüş qabiliyyətlərini daim artırmalarını, komandir-rəis heyətinin əmr və sərəncamlarını dəqiq və vaxtında yerinə yetirmələrini, torpaqlarımızın müdafiəsi naminə döyüşə hər an hazır olmalarını tövsiyə ediblər.

Yekunda şəxsi heyətin təntənəli marşla tribuna önündən keçidi olub.

Rəsmi mərasim başa çatdıqdan sonra şəxsi heyət üçün mədəni-kütləvi tədbirlər keçirilib və valideynlər hərbi hissələrdə yaradılmış şəraitlə də tanış olublar.

* * *

Əlahiddə Ümumqoşun Orduda gənc əsgərlərin andiçmə mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, əsgərlər Hərbi And içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Çıxış edən hərbi qulluqçular və əsgər valideynləri rəşadətli ordumuzun ölkəmizin qüdrətinin nümunəsi, xalqımızın iftixar yeri, müstəqilliyimizin qarantı olduğunu bildirib və gənclərə xidmətlərində intizamlı olmağı, Vətənə olan əsgəri borcunu ləyaqətlə yerinə yetirməyi arzulayıblar.

Əlahiddə Ümumqoşun Ordu komandanının müavini general-mayor Məhəmməd Həsənov bildirib ki, dövlətimiz tərəfindən əsgərlərimizə göstərilən diqqət və qayğı, yaradılan müasir məişət şəraiti onların daha yaxşı xidmət etmələrinə zəmin yaradır. İntizamlı Vətən müdafiəçisi olmaq üçün hər bir əsgər dövlətimizin qayğısından bəhrələnərək üzərinə düşən vəzifələri şüurla yerinə yetirməli, silah və texnikanın sirlərinə dərindən yiyələnməli, fiziki və mənəvi-psixoloji cəhətdən hazırlıqlı olmalı, komandirləri tərəfindən öyrədilənləri dərindən mənimsəməlidir.

General-mayor Məhəmməd Həsənov gənclərə xidmətlərində uğurlar arzulayıb və Hərbi Andı qəbul etmələri münasibətilə onları təbrik edib.

* * *

General-mayor Vasif Kazımov müdafiə nazirinin müavini - Quru Qoşunların komandanı general-leytenant Ənvər Əfəndiyevin təbrikini tədbir iştirakçılarına çatdırdı.

Bildirildi ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunan Azərbaycan Ordusunun maddi-texniki bazası gündən-günə yenilənir, şəxsi heyət torpaqlarımızın müdafiəsində mətinliklə dayanaraq döyüş qabiliyyətini daim artırır. Gənc əsgərlərin içdikləri anda sadiq qalaraq, xidməti borclarını şərəflə, vicdanla yerinə yetirərək respublikamızın ərazi bütövlüyünün qorunmasında səylərini əsirgəməyəcəkləri əminliklə ifadə olundu.

Sonra polkovnik-leytenant Tural Abdullayev gənc əsgərləri təbrik etdi:

"Nizami ordu suveren dövlətin ən mühüm atributudur. Orduda xidmət etmək, Vətənin keşiyində durmaq, onun ərazi bütövlüyünü qorumaq hər bir vətəndaşın müqəddəs borcudur. Bu gün siz gənc əsgərlərin həyatında əlamətdar və yaddaqalan günlərdən biridir. Müqəddəs borcunuzu yerinə yetirmək üçün ordu sıralarına qatılmısınız. Cəsarətlə deyə bilərik ki, ordumuz Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında tam formalaşaraq regionun güclü ordusuna çevrilib. Siz fəxr etməlisiniz ki, belə güclü orduda xidmət edəcəksiniz. İnanıram ki, hər biriniz hərbi nizamnamələrin tələblərinə sözsüz tabe olacaq, silah və texnikaların sirlərini dərindən öyrənərək döyüş qabiliyyətinizi daim artıracaq, Azərbaycan Respublikasının müdafiəsində mətin dayanacaq, dövlətimizə və xalqımıza sədaqətlə xidmət edəcəksiniz".

Daha sonra gənc əsgərlər adından əsgər Süleyman Əhmədov çıxış etdi: "Bu gün mən və əsgər yoldaşlarım üçün unudulmaz və qürurverici bir gündür. Bir vaxtlar şəhid və qazilərimizin dayandığı bu sıralarda bu gün biz dayanmışıq. Əminliklə deyə bilərəm ki, torpaqlarımızın ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçən, bizlərə qələbə sevincini bəxş edən şəhidlərimizin əmanət qoyub getdikləri Vətənimizin hər qarışını göz bəbəyimiz kimi qoruyacağıq. Komandir və rəislərimizin əmr və sərəncamlarını dəqiq, vaxtında yerinə yetirəcəyik".

Çıxışlardan sonra komando hərbi hissələrinin şəxsi heyəti nümunəvi çıxışları ilə qonaqlara qürurverici anlar yaşatdılar.

* * *



Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində keçirilən gənc əsgərlərin andiçmə mərasimi rəsmi ritualların yerinə yetirilməsi ilə başladı. Polkovnik Elşad Pənahov tədbir iştirakçılarını salamlayaraq Hərbi Andı qəbul edən gəncləri və onların valideynlərini təbrik etdi. Bu günün gənclərin həyatında ən əlamətdar günlərdən olduğunu vurğuladı: "Əziz gənclər, bu gün siz Vətənə sədaqət andı içdiniz. Siz çox xoşbəxt gənclərsiniz ki, qalib və rəşadətli ordunun əsgərlərisiniz. Azərbaycan Ordusunun banisi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin ordu quruculuğuna göstərdiyi ali diqqətin nəticəsində bu gün ordumuz regionun ən güclü ordusudur. Günnüt və Aprel döyüşlərindəki qələbələr, bu qələbələrin davamı kimi 44 günlük Vətən müharibəsində qazanılan tarixi zəfər Azərbaycan Ordusunun gücünün, zəngin maddi-texniki bazasının və yüksək döyüş hazırlığına malik şəxsi heyətinin olduğunun nümayişi oldu. Həmçinin onun da göstərişi oldu ki, ordu sıralarımızda xidmət edən gənclər yüksək mənəvi-psixoloji hazırlıqda, vətənpərvər ruhda xidmət edirlər. İnanıram ki, siz də içdiyiniz anda sadiq qalacaq, nümunəvi xidmət edəcək, dövlətimizin və xalqımızın sizə olan etimadını layiqincə doğruldacaqsınız".



Sonra polkovnik-leytenant Bəhram Abdullayev çıxış edərək, ordu sıralarında xidmət edən gənclərə hər zaman yüksək rəğbət bəsləyən Ulu Öndərin "Orduda xidmət etmək Azərbaycanın hər bir vətəndaşının şərəfli borcudur. Müstəqil Azərbaycan Respublikasının Milli Ordusunda xidmət etmək hər bir azərbaycanlı üçün böyük iftixardır. Fəxr edə bilərsiniz. Fəxr etməlisiniz ki, xalqımız sizə bu şərəfli vəzifəni etibar edibdir" sözlərini xatırlatdı. Əlamətdar gün münasibətilə gənc əsgərlərə xoş arzularını bildirdi. Həmçinin valideynlərinə söz verdi ki, övladlarını bacarıqlı əsgərlər, cəmiyyətə yararlı vətəndaşlar kimi formalaşdırmaq üçün komandir heyəti əlindən gələni əsirgəməyəcək.

Gənc əsgərlər adından çıxış edən Elvin Bayramov silahdaşlarını təbrik etdi. "Hərbi And hər birimiz üçün Vətən qarşısında dönməz sədaqətin ifadəsidir, pozulmaz qanundur. Əmin ola bilərsiniz ki, içdiyimiz anda sadiq qalacaq, hərbi bilikləri dərindən öyrənəcək, qalib ordumuzun adına layiqli əsgərlər kimi formalaşmaq üçün səylə çalışacağıq".

Övladlarının əsgər olmasından fərəhlənən, onların andiçməsini, təntənəli keçidini böyük həvəslə və sevinclə izləyən valideynlər adından Xanım nənə və İkram Bayramov çıxış etdilər. "Ordumuzla, əsgərimizlə hər zaman fəxr edirik. Şanlı ordumuz bizə Böyük Qələbə sevinci yaşatdı. Azərbaycan Ordusunun güc və qüdrəti bütün dünyaya səs salıb. Bu gün övladlarımız şanlı ordumuzun layiqli əsgərləri olacaqlarına and içdilər. Bu hər birimiz üçün böyük fəxr və sevincdir. Bu əlamətdar günə toplaşan hər kəsi səmimi-qəlbdən təbrik edirik. Bütün gənclərə şərəfli xidmətlərində uğurlar arzulayırıq. Hərbi xidmət keçən gənclərimizə yüksək qiymət verərək, onların bütün növ təminatlarını yüksək səviyyədə təşkilini daim diqqətdə saxlayan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə valideynlər adından dərin minnətdarlığımızı bildiririk. Allah hərbçilərimizi qorusun, eşq olsun Ali Baş Komandanımıza, eşq olsun müzəffər və rəşadətli Azərbaycan Ordusuna".

* * *

Gənc əsgərlərin Hərbi Andı qəbul etmələri üçün düzüldüyü barədə komandirə məlumat verildi. Hərbi hissə komandiri şəxsi heyətlə salamlaşdıqdan sonra əlamətdar gün münasibətilə gənc əsgərləri təbrik etdi, onlara xidmətlərində uğurlar arzuladı.

Hərbi hissə komandirinin əmri ilə gənc əsgərlər nizami addımlarla sıra meydanına yaxınlaşaraq Hərbi Andı qəbul etdilər. Həyatlarının xoş anlarını yaşayan əsgərlər gur səslə Vətənə sədaqət andı içdilər.

Hərbi Andın qəbulundan sonra çıxış edən polkovnik-leytenant Aqil İsmayılov dedi:

- Əziz əsgərlər, bu gün siz həyatınızın ən əlamətdar günlərindən birini yaşayırsınız. Təntənəli surətdə içdiyiniz anda da həmişə sadiq qalacaqsınız. Hərbi bilikləri dərindən öyrənəcək, daim döyüş vərdişlərinizi artıracaqsınız. Sələflərinizin döyüş yollarını şərəf və ləyaqətlə davam etdirəcəksiniz.

Kapitan Anar Rəhimli də gənc əsgərlərin ünvanına xoş sözlər dedi. "Bildirdi ki, qürur dolu bu günü həmişə xoş təəssüratlarla xatırlayacaqsınız. Nümunəvi xidmətinizlə həm əsgər yoldaşlarınızın, həm də komandirlərinizin rəğbətini qazanacaqsınız".

Gənc əsgərlər adından çıxış edən əsgər Şahnur Cəfərov dedi ki, bu gün biz təntənəli surətdə Vətənə sədaqət andı içdik. "And içdik ki, Vətən torpaqlarını göz bəbəyimiz kimi qoruyacaq, hərbi sirləri dərindən öyrənəcək, yurdumuzun keşiyində ayıq-sayıq dayanacağıq".

**(Ardı 5-ci səhifədə)**

# Azərbaycan Ordusunda Hərbi andiçmə mərasimləri keçirildi



Hərbi hissənin ərazisi bayramsayağı bəzədilib. Ən uca yerlədən asılmış üçrəngli bayraqlarımıza baxdıqca ürəyimiz qürurla dolurdu.

Hərbi hissənin belə bəzədilməsi gənc əsgərlərin Hərbi Andı qəbul etmələri ilə əlaqədardır.

Səhərin sərin mehi sanki havanın istisinə sığal çəkir. Üfüqdən boylanan günəşin də çöhrəsində sevinc cizgiləri görünür.

Şəxsi heyətin Hərbi Andı qəbul etmək üçün düzüldüyü barədə hərbi hissə komandirinə məruzə olundu. Komandir gənc əsgərlərlə salamlaşdı və onları əlamətdar gün münasibətilə təbrik etdi.

Vətənə sədaqət andı içən gənc əsgərlər hərbi orkestrin ifa etdiyi ritmlərlə sıra meydanındakı üstünə üçrəngli bayrağımız və silahlar qoyulmuş masalara yaxınlaşdılar. Sonra komandirin verdiyi əmri icra edərək Vətənə sədaqət andı içdilər.

Çox keçmir ki, gənc əsgərlər Vətənə sədaqət andı içirlər. Bu barədə hərbi hissə komandirinə məruzə olundu. Tribunaya yaxınlaşan komandir gənc əsgərləri təbrik etdi, onlara gələcək xidmətlərində uğurlar arzuladı.



Sonra yuxarı komandanlığın əsgərlərə ünvanlanmış təbrik məktubu oxundu. Məktubda deyilir ki, əziz əsgərlər, bu gün siz təntənəli surətdə Vətənə sədaqət andı içdiniz. Yurdumuzu göz bəbəyiniz kimi qoruyacağınıza and içdiniz. Əminik ki, Siz andınıza sadiq qalacaq, yurdumuzun keşiyində həmişə ayıq-sayıq dayanacaq, xidmətinizdə böyük uğurlar qazanacaqsınız.

Gənc əsgərlər adından çıxış edən əsgər Elcan Bayramov dedi ki, bu gün bizim üçün çox yaddaqalan oldu. Böyük sevinc içində Hərbi Andı qəbul etdik. İçdiyimiz anda həmişə sadiq qalacaq, hərbi bilikləri dərindən öyrənəcək, döyüş vərdişlərini mükəmməl mənimsəyəcək, xidmətimizdə böyük uğurlar qazanacağıq.

* * *

Səhərin alatoranında hərbi hissənin qarşısına gələn valideynlərin ardı-arası kəsilmirdi. Nəzarət-buraxılış məntəqəsində qələbəlik vardı. Onlar yayın istisində ölkəmizin müxtəlif bölgələrindən Vətənə, dövlətə, xalqa sədaqətlə xidmət edəcək övladlarının andiçmə mərasiminə gəlmişdilər. Hərbi hissə bayraqlarla bəzədilmişdi. Çox keçmədi qonaqlar hərbi hissənin sıra meydanının qarşısında toplaşdılar. Hərbi Dəniz Qüvvələrinin döyüş bayrağı silahlı qarovul dəstəsinin müşayiəti ilə meydana gətirildi.

Hərbi Dəniz Qüvvələrinin Komandanı vitse-admiral Sübhan Bəkirova gənc matrosların Hərbi andiçmə münasibətilə düzüldükləri barədə məruzə olundu. Şəxsi heyətlə salamlaşan vitse-admiral Təlim-Tədris Mərkəzinin rəisinə gənc matrosların andiçmə mərasiminin başlanması barədə göstəriş verdi. Gənc matroslar bölük komandirinin komandası ilə nizami addımlarla sıranın önündəki masaları hər iki cinahdan əhatəyə aldılar. Masaların üzərindəki atıcı silahlarla "qardaş" olub Hərbi Andı gur səslə oxudular. Gənc matroslar Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcəklərinə and içməklə Azərbaycan Ordusunun tamhüquqlu üzvü oldular.

Hərbi andiçmə mərasimində çıxış edən vitse-admiral Sübhan Bəkirov gənc matrosları əlamətdar gün münasibətilə təbrik edərək dedi:

- Azərbaycan Ordusu müasir tələblərə uyğun, yüksək hərbi intizama malik ordular sırasındadır. Təməli Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində bütün sahələrdə olduğu kimi, ordu quruculuğu da uğurla inkişaf etmiş və ölkəmizin müdafiə qüdrəti daha da möhkəmlənmişdir. Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Regionun ən güclüsüdür. 44 günlük Vətən müharibəsində qazandığımız Böyük Qələbə bunun bariz nümunəsidir.

Gənc matroslar adından çıxış edən Şəhriyar Məmmədov dedi ki, onlar Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sularını və dəniz sərhədlərini göz bəbəyi kimi qoruyacaq, Xəzər dənizində üçrəngli bayrağımızın qürurla dalğalandırılması üçün hərb elminin sirlərinə, dənizçi təcrübəsinə dərindən yiyələnəcək, vəzifə borclarının öhdəsindən layiqincə gələcək, komandirlərin və rəislərin öyrətdiklərini mükəmməl mənimsəyəcək, hərbi nizamnamələrin tələblərinə sözsüz tabe olacaqlar.

Hərbi Andı qəbul edən gənc matros Kənan Şərbətzadənin anası Samirə Quliyeva çıxış edərək dedi ki, oğlunun xidmət etdiyi hərbi hissədə yaradılan məişət şəraiti yüksək səviyyədədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin orduya ayırdığı diqqət və qayğını bir əsgər anası kimi həmişə hiss edib.

Əsgər anası onu da qeyd etdi ki, oğlunun Vətənə xidməti borcunu şərəflə, ləyaqətlə yerinə yetirəcəyindən əmindir. Bütün əsgərlərə də hərbi xidmət dövründə komandirlərin əmr və tapşırıqlarını vaxtında, düzgün yerinə yetirməklə alnıaçıq, üzüağ doğmalarının yanına qayıtmalarını arzuladı.

* * *

"N" hərbi hissəsinin sıra meydanında gənc əsgərlər Vətənə sədaqət andı içmək üçün düzülmüşdülər. Əsgər valideynləri və yaxınları, ictimaiyyət nümayəndələri yavaş-yavaş hərbi hissənin ərazisinə daxil olurdular. Hər kəs öz yerini tutub andiçmə mərasiminin başlanmasını gözləyirdi. Gənc əsgərlərin simasından həyəcan, sevinc və qürur sezilirdi.

Mərasim açıq elan edildikdən sonra gənc əsgərlər Hərbi Andı qəbul etdilər. Sonra yuxarı komandanlığın təbriki şəxsi heyətə çatdırıldı.

Təbrik məktubunda deyilirdi: "Bu gün sizin həyatınızın ən şərəfli, məsuliyyətli günlərindən biridir. Siz Hərbi And içərək müqəddəs və şərəfli bir vəzifənin - respublikamızın



müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün göz bəbəyi kimi qorunması vəzifəsinin icrasına başlamaqla bərabər, Azərbaycan Ordusunun tamhüquqlu hərbi qulluqçusu olursunuz. Ulu Öndər Heydər Əliyevin müstəqil respublikamıza rəhbərliyi dövründən Azərbaycan Ordusu müasir tələblər səviyyəsində yenidən qurulmuş, ordumuzda vahid komandanlıq prinsipi təmin edilmişdir. Bunun nəticəsi olaraq 27 sentyabr 2020-ci ildə xalqımızın bir yumruq kimi Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında birləşməsi və Silahlı Qüvvələrimizin bütün qoşun növlərinin mübarizliyi və fədakarlığı nəticəsində 30 ilə yaxın işğal altında olan Azərbaycan torpaqları düşməndən azad olunmuşdur".

Təbrikdə əminliklə bildirilirdi ki, gənc əsgərlər içdikləri Hərbi Anda sadiq qalaraq, respublikamızın ərazi bütövlüyünün qorunması, torpaqlarımızın müdafiə olunması naminə xidməti borcunu şərəflə, vicdanla və ləyaqətlə yerinə yetirəcək, Azərbaycan Ordusunun döyüş və mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsində səylərini əsirgəməyəcəklər.

Polkovnik Saleh Kələntərov çıxış edərək gənc əsgərləri və onların valideynlərini əlamətdar gün münasibətilə təbrik etdi. O, valideynlərə müraciət edərək bildirdi ki, bu gün sizə övladlarınızın Hərbi andiçməsində iştirak etmək qismət olub. Gün o gün olsun ki, onlar da sizin kimi öz övladlarının andiçməsində iştirak etsinlər. Əminəm ki, bu gün Hərbi Andı qəbul edən hər bir gənc əsgər intizamlı, məsuliyyətli olacaq, Vətənə sədaqət andına daim sadiq qalacaq.

Bir daha təbrik edir və Sizlərə cansağlığı, Vətənə müqəddəs xidmətinizdə uğurlar arzulayıram.

Tədbir gənc əsgər valideyni Birinci Qarabağ müharibəsi qazisi Azər Quliyevin çıxışı ilə davam etdi: "Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan ordumuz, bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində dünyanın ən güclü orduları sırasına daxil edilib. Ordumuzun maddi-texniki təminatı günü-gündən möhkəmlənir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev deyirdi ki, xalqla ordunun birliyi dövləti qüdrətli edir. Bəli, biz bütün bunların məntiqi nəticəsini Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan böyük Zəfərdə gördük. Qazandığımız qələbələr təsdiq etdi ki, bizim güclü ordumuz var. Bir daha əsgərlərimizi əlamətdar gün münasibətilə təbrik edir, onlara Vətənə, torpağa sədaqətlə xidmət edərək, valideynlərinə, el-obaya başucalığı gətirmələrini arzulayıram. Yaşasın Azərbaycan! Yaşasın xalqımız! Hörmətli valideynlər, sizi də övladlarımızın Hərbi Andı qəbul etməsi münasibətilə təbrik edirəm, gözünüz aydın olsun. Tanrı onları qorusun".

Daha sonra gənc əsgərlər adından İsmayıl İsmayılov danışaraq bu günün onların həyatında yaddaqalan və əlamətdar bir gün olduğunu dedi: "Xalqımızın Zəfər zamanına təsadüf edən bu tarixi gündə Azərbaycan Ordusunun sıra-



larında olmaq mənim üçün, eləcə də əsgər yoldaşlarım üçün böyük şərəfdir. Tarixin dərinliklərindən süzülüb gələn milli adət-ənənələrimizə bağlı olan Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu "Azərbaycançılıq məfkurəsi" xalqımızı vahid milli ideya ətrafında birləşdirdi. Onun davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müdrik siyasəti, xalqımızın birliyi və şanlı ordumuzun qəhrəmanlığı sayəsində mənfur düşməni diz çökdürüb əzəli və əbədi torpaqlarımızı azad etdik. Bir neçə dəqiqə bundan öncə Hərbi Andı qəbul edən biz gənclər ana Vətənimizin rəşadətli müdafiəçiləri sırasına daxil olduq. Əziz valideynlərimiz, söz verik ki, şəhidlərimizin qanı, qazilərimizin canı bahasına azad edilmiş müqəddəs torpaqlarımızı canımız və qanımız bahasına qoruyacaq, komandir və rəis heyəti tərəfindən tədris edilən döyüş taktikalarına, hərbi nizamnamələrin tələblərinə dərindən yiyələnəcək, səmimi, cəsur və yenilməz əsgərlər olacağıq".

**"Azərbaycan Ordusu"**

# Şəhidlərin xatirəsinə həsr olunan anım mərasimləri keçirilib







*Torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn Nəcəfov Vüqar, Hüseynzadə Həmidağa, Pənahov Əkbər və Cabbarzadə Nicatın xatirəsinə həsr olunan anım mərasimləri keçirilib.*

Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, şəhidlərin ailə üzvləri, yaxınları, eləcə də döyüş yoldaşlarının iştirak etdiyi tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, anım mərasimlərində çıxış edənlər Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı tarixi qələbədən, bu qələbənin qazanılmasında igid oğullarımızın göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrindən söz açıblar.

Sonra tədbir iştirakçılarına Vətən müharibəsi şəhidləri V.Nəcəfov, H.Hüseynzadə, Ə.Pənahov və N.Cabbarzadənin şərəfli həyat yolu haqqında məlumat verilib.

Şəhidlərin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.



# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndələri hərbi qulluqçularla görüşüb



*Azərbaycan Ordusunda milli-mənəvi dəyərlərimizin təbliği, şəxsi heyətə vətənpərvərlik hissinin aşılanması məqsədilə Müdafiə Nazirliyi Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi ilə birgə tədbirlər həyata keçirir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, 2023-cü il üçün imzalanan birgə tədbirlər planına uyğun olaraq, komitə nümayəndələri hərbi hissələrdə şəxsi heyətlə görüşüb, söhbətlər aparıblar.

Tədbirdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, onların zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolu və bu istiqamətdə həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyəti barədə danışıblar.

Daha sonra şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb.



## Nümunəvi xidmət

# Təcrübəli sürücü

Erməni işğalından azad edilmiş ərazilərimizdə dislokasiya olunan bölmələrimiz öz mövqelərini daha da möhkəmləndirib. Döyüş növbətçiliyinin fasiləsiz təşkili və sosial-məişət şəraiti yüksək səviyyədədir. Şəxsi heyət yüksək döyüş ruhunda, qələbə əzmində xidmətini davam etdirir. Coğrafi mövqeyi, ərazisi çətin olan dağ relyefində xidmətin aparılması nə qədər ağır və məsuliyyətli olsa da, bir o qədər qürurvericidir. Üç il öncəyə qədər əlçatmaz olan o dağlar, o doğma yurd yerlərimizdə bu gün rəşadətli Azərbaycan Ordusunun bölmələri xidmət edir. O müqəddəs yerlər uğrunda gərgin döyüşlər gedib. Ordumuzun şəxsi heyəti bu döyüşlərdə rəşadətlə vuruşub.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Aslan Məhərrəmov da həmin bölmələrimizdən birində sürücü kimi xidmət edir. 44 günlük Vətən müharibəsində fəal iştirak edən Aslanın qardaşı Əmiraslan da hərbi qulluqçudur. Onlar Göygöl rayonundandırlar. Komandirləri Aslanın nümunəvi xidməti, intizamı, məsuliyyəti ilə seçildiyini deyir.

Aslan Məhərrəmov dörd ildir ki, sürücü ixtisasında xidmət edir. Sənətinin peşəkarıdır, hərbi maşını çox məharətlə, bacarıqla idarə edir. Həmçinin idarə etdiyi avtomobilin daim saz və işlək vəziyyətdə olması üçün vaxtlı-vaxtında texniki qulluq göstərir. Buna görə də komandirlərini həmişə mənzil başına vaxtında və sağ-salamat çatdırır. Aslan deyir ki, erməni işğalından azad edilmiş ərazilərimizdə yerləşən bölmədə xidmət etmək hər birimiz üçün qürurvericidir. "30 ilə yaxın həsrətini çəkdiyimiz doğma yerlərimizdə indi xidmət etmək hamımızın üräyincədir. Hazırda xidmət etdiyimiz ərazilər uğrunda neçə-neçə qəhrəman, cəsur oğullar canından, qanından keçdi, yaralandı. Amma döyüş mövqeyindən geri çəkilmədi. Verilən döyüş tapşırığını cəsarətlə yerinə yetirdi. Bu gün erməni işğalçılarının əvvəlki illər viran qoyduğu yurd yerlərimiz azaddır, yenidən qurulur, yerlərdə tikinti işləri günü-gündən genişlənir. Bütün bunları gördükcə çox sevinir, fərəhlənirik, xidmətimizdə məsuliyyətimizi daha da artırırıq".



Onu da qeyd edim ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə hərbi qulluqçu Aslan Məhərrəmov Vətən müharibəsində iştirakına görə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olunub.

Hərbçi olmaqdan, işğaldan azad olunmuş torpaqlarımızda xidmət etməkdən qürur duyan təcrübəli sürücü Aslana şərəfli, çətin və məsuliyyətli xidmətində uğurlar arzulayıram. Ümid edirəm ki, o bundan sonra da üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gələcək.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

## Məişət

# "Xidmətimizin düzgün təşkili üçün hərbi hissəmizdə yüksək şərait var"



Hərbi xidmətin uğurlu təşkilini şərtləndirən amillərdən biri də hərbi qulluqçuların yüksək sosial-məişət şəraitinin olmasıdır. Hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılması, onların qayğıları daim dövlət rəhbərliyinin, eləcə də müdafiə naziri general-polkovnik Zakir Həsənovun nəzarəti altındadır. Vətən müharibəsində qazanılan qələbədən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişi ilə erməni işğalından azad edilən torpaqlarımızda təmir-bərpa və yenidənqurma işləri geniş vüsət alıb. Yeni hərbi hissələrin tikintisi, yerləşdiyi yerdən asılı olmayaraq hərbi xidmət keçmək üçün bütün lazımi şəraitin yaradılması orduya və hərbçilərə olan diqqətin bariz nümunəsidir.

İşğaldan azad edilmiş rayonlarımızdan birində yerləşən hərbi hissələrdə şəxsi heyət üçün yaradılan yüksək şəraitin şahidi olduq. Burada əsgərlərin məişət şəraiti, gündəlik fəaliyyəti, keçdikləri məşğələlərlə tanış olduq.

Kiçik çavuş Ümid Əlirzayev ilə əsgər yataqxanasına yollandıq.

Əsgər yataqxanasının təmizliyi və səliqəsi göz oxşadı. Burada olan yeni ikimərtəbəli çarpayılar, təmiz mələfələr, əl-üz dəsmalları əsgərlərin yüksək sosial-məişət şəraitindən xəbər verirdi. Hər bir əsgər üçün ayrılmış fərdi tumbada isə lazımi şəxsi gigiyena vasitələri vardı. "Şəxsi heyətin yataq dəstləri həftədə bir dəfə təmizləri ilə əvəz olunur", - deyə kiçik çavuş Əlirzayev söhbətə başladı:

- Həftə sonu istifadə olunmuş bütün camaşırlar, dəsmallar yığılaraq hərbi hissənin camaşırxanasına təhvil verilir. Orada çalışan qadın işçilər tərəfindən müasir avadanlıqlarla yuyulub ütüləndikdən sonra bölmələrə qaytarılır. Əsgərlərimizin bütün qayğıları və təminatları hər zaman rəhbərliyin diqqətində saxlanılır. Onlar heç nədən korluq çəkmədən yüksək əhval-ruhiyyə ilə xidmət edirlər.

Yataq yerlərini səliqəyə salan əsgərlər Ramil Allahverdiyev və Aydın Abbaslı ilə həmsöhbət olduq. Hərbi xidmətə Biləsuvar rayonundan çağırılan əsgər Aydın Abbaslı sözə başladı:

- Hərbi xidmətə gələn hər gənc kimi, mən də əsgər olmağın məsuliyyətini anlayıram. Vətənin müdafiəsində dayanmaq, hərbi forma geyinmək qürurverici bir hissdir. Xidmətimizin düzgün təşkili üçün hərbi hissəmizdə yüksək şərait var. Təkcə yataqxanamızda deyil, yeməkxanamızda, dərs otaqlarımızda və digər inzibati otaqlarda da müasir tələblərə cavab verəcək bütün şərait yaradılıb. Bizdən nümunəvi xidmət etmək, şanlı ordumuzun adına layiqli əsgərlər olmaq tələb olunur. Mən və digər əsgər yoldaşlarım da bizə olan etimadı doğrultmaq üçün çalışırıq.

"Hərbi hissəyə ayaq basdığım ilk gündən doğma münasibət görmüşəm" - deyən, əslən Zəngilan rayonundan olan əsgər Ramil Allahverdiyev söhbətə qoşuldu. - Vətən qarşısında övladlıq borcumu yerinə yetirmək üçün var qüvvəmlə çalışıram. İllərdir işğal altında qalan torpaqlarımızı 44 gün ərzində azad edən hərbçi qardaşlarımızın, şəhid və qazilərimizin bizə əmanət etdiyi bu torpaqları göz bəbəyimiz kimi qorumalıyıq. Bunu bacarmağımız üçün heç bir çətinliyimiz yoxdur. Xidmətimizin yüksək səviyyədə təşkili üçün bizə hər bir şərait yaradılıb.

Azad edilmiş bütün şəhər və rayonlarımızda yenidənqurma işləri sürətlə davam edir. Valideynlərimin doğulub boya-başa çatdığı Zəngilan rayonunda da artıq böyük işlər görülüb. İnanıram ki, yaxın müddətə qədər bütün məcburi köçkünlərimiz doğma ev-eşiklərinə geri qayıdacaqlar. Mən də ailəmlə birlikdə Zəngilan rayonuna qayıdacağıq.

İşğaldan azad edilən torpaqlarımızda əsgərlərimiz üçün yaradılan yüksək məişət şəraitinin olduğunu görmək bizə könül xoşluğu verdi. Belə şəraitdə xidmət etmək şəxsi heyətin döyüş ruhunun, mənəvi-psixoloji durumun yüksəlməsinə də səbəb olur.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

## Sıra hazırlığı



# Hərbi xidmətin "əlifba"sı

İsti yay səhəridi. Göylər buludsuzdu. Günəşin şüalarından torpaqdan ilıq bürkü qalxır. İstidən puçur-puçur düşən tər axıb köynəyimizə hopurdu. Bu yerlərin yayı həmişə belə isti keçir. Burada yaşayan insanlar da təsərrüfat işlərini gün çıxmamışdan gün qızana qədər görürlər. İndi hamının yavaş-yavaş kölgəliyə çəkilən vaxtıydı. Hərbi xidmətdə də təbiətlə bağlı xüsusiyyətlər olur - hərbi hissələrdə də şəxsi heyət çöl məşğələlərini səhər ertədən keçib. Onlar çöl məşqlərini axşam saatlarında - günün istisi sovuşandan sonra davam etdirəcəklər. Bu haqda müdafiə nazirinin xüsusi əmri də var. Yay aylarında günün müəyyən saatlarında şəxsi heyətə açıq havada dərslərin keçirilməsi qadağandır. Bu səbəbdən də şəxsi heyət növbəti məşğələlərə üstü bağlı, kölgəli yerlərdə davam edirdi.

Hərbi hissədə şəxsi heyətin gündəlik fəaliyyətini tənzimləyən "günün nizam qaydaları" mövcuddur. Hər bir komandir bu qaydalara riayət etməklə öz xidmətini bunun əsasında qurur.

Zabit Elşad Məmmədovla onun komandiri olduğu bölmədə görüşdük. - Burada olan əsgərlər hərbi xidmətə yeni gəliblər, - dedi. - Onların hazırlığı ilə bilikli, təcrübəli, şəxsi intizamı daha üstün olan manqa, taqım, bölük komandirləri məşğuldurlar.

Gənc əsgərlər hündür, qollu-budaqlı qovaq ağaclarının kölgəsinə toplaşmışdılar. Hər qrupun qarşısında da manqa, taqım komandiri dayanaraq onlara zəruri təlimatlar verirdi. Sıra, intizam nizamnamələrinin maddələrini çatdırmaqla onun tələblərinə ciddi şəkildə əməl olunmasını izah edirdi.

- Ordu sıralarına gələn əsgərlər arasında ali təhsillilər də var, - deyə zabit Eşad Məmmədov sözünə davam etdi. Biz təhsilindən, yaşından asılı olmayaraq əsgərlər arasında fərq qoymuruq. Hər əsgərə vəzifə borcunu izah edirik. Nizamnamələrin tələblərinə uyğun olaraq hər bir hərbi qulluqçuya intizamlı olmağı, komandirlərin, rəislərin əmr və göstərişlərini vaxtında, dəqiq yerinə yetirməyin vacibliyini izah edirik.

Başqa bir qrupun hazırlıq keçdiyi məkana yaxınlaşdıq. Çavuş Samir Abbasov on ildən artıqdır ki, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusudur. 44 günlük Vətən müharibəsi iştirakçısıdır. Qubadlıya qədər uğurlu döyüş yolu keçib. Döyüşlərdə xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif olunub. Əminik ki, layiqli döyüş yolu keçmiş bu hərbçi gənc əsgərlərə təlim-tərbiyəni yüksək səviyyədə aşılayacaq.

Dərs rəhbəri dedi ki, gənc əsgərlər üçün ən vacib olan sıra məşqləridir. Çünki hər bir əsgər sıra yerişini, rəisə yaxınlaşma, rəisdən uzaqlaşma və məruzə qaydalarını mükəmməl öyrənməlidir. Onların hazırlığı deyəndə biz daha çox bu amillərə önəm veririk. Necə deyərlər, bunlar hərbi xidmətin "əlifba"sıdır.

Əsgərlərin üzündəki təbəssüm onların hərbi xidmətinin yüksək səviyyədə keçməsindən xəbər verirdi. Qısa tanışlıq zamanı məlum oldu ki, gənc əsgərlərin hər biri ölkəmizin müxtəlif bölgələrindən gəlib Vətənə ləyaqətlə xidmət edirlər. Bunun üçün komandirlərin öyrətdiyi bilikləri dərindən mənimsəməyə çalışırlar. Gənc əsgərlərdən Seyidəli Rüstəmli, Əlabbas Baxşıyev, Toğrul Həsənov, Şahin Cəbiyev, Vurğun Sadıqov, Rəhim İsmayıllı, Afiyəddin Məmmədov, Sadiq Fərəcli, Tərlan Tahirzadə və başqaları hərbi xidmət zamanı həm təlimlərdən, həm də komandirlərin xoş münasibətlərindən razıdırlar.

Hərbi hissənin geniş düzülüş meydanında əsgərlərin düzgün addımlamaları üçün çəkilmiş kvadratlar - xətlər onların sıra yerişlərinin tez və mükəmməl öyrənilməsi üçündür. Günün müəyyən saatlarında gənclərin sıra hazırlıqlarını bu meydanda keçirlər. Bir ay öncə hərbi xidmətə başlayan bu gənc əsgərlər sıra və digər hazırlıqlarda xeyli bilik və bacarıqlar qazanıblar. İlkin hazırlıqdan sonra işğaldan azad edilmiş ərazilərimizdə xidmətlərini davam etdirəcəklər. Onlara hərbi xidmətlərdə uğurlar arzulayırıq.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Suriyanın şimalında Türkiyə hərbçiləri tərəfindən 12 terrorçu zərərsizləşdirilib



Türkiyə Silahlı Qüvvələri Suriyanın şimalında hücuma hazırlaşan 12 PKK-YPG terrorçusunu uğurlu əməliyyatla zərərsizləşdirib.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Beləliklə, son üç gündə İraqın və Suriyanın şimalında zərərsizləşdirilən terrorçuların ümumilikdə sayı 21-ə çatıb.

## Rumıniyada NATO döyüş qrupunun beynəlxalq təlimləri keçirilir



Rumıniyada avqustun 14-də NATO döyüş qrupunun beynəlxalq təlimləri başlayıb.

Bu barədə ölkənin Milli Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Avqustun 18-dək davam edəcək "Deployex" təlimlərində Fransa və Lüksemburqun 250 əsgərinin, həmçinin NATO döyüş qrupunun 65 texnikası iştirak edir. Təlimlərin məqsədi döyüş qrupunun canlı qüvvə və texnikasının çevik yerləşdirilməsi üzrə məşq etməkdir.

Bundan əvvəl Şimal Donanması Arktika zonasında qüvvələrə və qoşunlara komandanlıq və nəzarət üzrə komanda-qərargah təliminə başlayıb. Təlimlər bir neçə gün davam edib. Bu müddət ərzində Arktika ekspedisiya gəmi qrupunun yerləşdirilməsi həyata keçirilib. Qırıcılar Arktika dəniz zonasında hərbi-dəniz qüvvələrinin tətbiqi üzrə komandirlərin öyrənilməsi, əməliyyatların aparıldığı ərazilərin təcrid olunması üçün xüsusi əməliyyatlar keçirib, həmçinin təxribat və kəşfiyyat qruplarının qarşısının alınması və məhv edilməsi üsullarını öyrəniblər.

## Rusiyanın Su-30 qırıcısı Kalininqrad vilayətində qəzaya uğrayıb



Rusiyaya məxsus "Su-30" qırıcısı Kalininqrad vilayətində təlim uçuşu zamanı qəzaya uğrayıb.

Bu barədə Rusiyanın Qərb Hərbi Dairəsinin mətbuat xidməti məlumat yayıb.

Məlumata görə, ekipaj həlak olub. Qəza boş ərazidə baş verib, təyyarədə sursat olmayıb. İlkin məlumata görə, qəzaya texniki nasazlıq səbəb olub.

## ABŞ-nin rəhbərlik etdiyi koalisiyanın təyyarələri Suriya səmasında qaydaları 23 dəfə pozub



ABŞ-nin rəhbərlik etdiyi beynəlxalq koalisiyanın təyyarələri sutka ərzində Suriya səmasında uçuşların təhlükəsizliyini 23 dəfə pozublar.

Bu barədə Suriya Ərəb Respublikasında döyüşən tərəflərin barışdırılması üzrə Rusiya Mərkəzinin rəis müavini kontr-admiral Vadim Kulit bildirib.

"Koalisiya tərəfindən gün ərzində Rusiya tərəfi ilə razılaşdırılmayan 13 uçuş fakt qeydə alınıb. Ət-Tanf ərazisində 10 qayda pozuntusu da qeydə alınıb. Gündə iki cüt F-35 qırıcısı, iki cüt F-16 döyüş təyyarəsi və iki "koalisiya" MQ-1C çoxməqsədli pilotsuz uçuş aparatı tərəfindən qaydalar pozulub", - deyə məlumda vurğulanıb.

V.Kulit bildirib ki, koalisiya bu cür hərəkətləri ilə aviasiya insidentləri törədir və Suriyanın hava məkanında vəziyyəti gərginləşdirir.

**AZƏRTAC-ın materialları əsasında**

# Quru Qoşunlarında səmti müəyyənetmə yarışı keçirildi

*Quru Qoşunlarının 2023-cü tədris ilinin hazırlıq planına əsasən, hərbi qulluqçular arasında səmti müəyyənetmə yarışı keçirildi.*



Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni ifa olundu.

Quru Qoşunlarının zabiti polkovnik-leytenant Elman Hadıyev tədbir iştirakçılarını salamlayaraq, keçirilən səmti müəyyənetmə yarışının əhəmiyyətindən danışdı. Bildirdi ki, hərbi qulluqçuların fiziki cəhətdən möhkəm və güclü olması baxımından mühüm əhəmiyyət kəsb edən yarışlar şəxsi heyətin döyüş ruhunun formalaşmasında böyük rol oynayır. Məhz bu səbəbdən də hər tədris ilinin hazırlıq planına əsasən, Quru Qoşunlarında müxtəlif idman növləri üzrə yarışlar keçirilir. Hərbi qulluqçularımızın güclü və iradəli olduqları üçün keçirilən bütün yarışlar gərgin mübarizə şəraitində keçir. Belə yarışlardan biri də səmti müəyyənetmə birinciliyidir. Siz yarışlarda həm komanda, həm də fərdi olaraq kompas və xəritədən istifadə etməklə ərazidə səmti müəyyən etmək üzrə bacarıqlarınızı sınayacaqsınız. Təyin olunmuş məsafə və vaxt ərzində müəyyən nəzarət nöqtələrinin müəyyənləşdirilməsi, xəritə üzərində hədəflərin aşkar edilməsi tapşırıqlarını icra edəcəksiniz. İnanıram ki, hər birimiz yüksək bilik və bacarıq göstərərək, qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən asanlıqla gələcəksiniz. Hər birinizə uğurlar və müvəffəqiyyətlər arzulayıram.



İki mərhələdə keçirilən yarışın sonunda Quru Qoşunlarının hakimlər komissiyasının üzvləri yekun nəticələrə əsasən qalibləri müəyyən etdilər.

Hakimlərin qərarına əsasən, "Hadrut" yığma komandası qalib gələrək yarışın kubokunu qazandı. "Bakı" və "Kəlbəcər" komandaları isə müvafiq olaraq ikinci və üçüncü yerlərdə qərarlaşdılar. Qaliblər fəxri fərman, kubok və medallarla mükafatlandırıldılar.

Qeyd edək ki, 8 komanda üzrə 32 hərbi qulluqçunun iştirak etdiyi yarışda fərdi olaraq ən yaxşı nəticə əldə etmiş iştirakçılar Azərbaycan Ordusunda keçiriləcək səmti müəyyənetmə birinciliyində Quru Qoşunlarını təmsil edəcəklər.

Birincilikdə ilk üç yeri tutan komandaların rəhbərlərinin fikirlərini öyrəndik. İlk həmsöhbətim kuboku qazanan "Hadrut" yığma komandasının rəhbəri polkovnik-leytenant Arif Novruzov oldu. "İlk öncə bu yarışın keçirilməsinə görə Quru Qoşunlarının komandanlığına dərin minnətdarlığımı bildirmək istəyirəm. Belə yarışların sayəsində şəxsi heyət dözümlülüyünü artıraraq, kompas və xəritədən istifadə etmə bacarıqlarını da təkmilləşdirirlər. Tədris ilinin hazırlıq planına əsasən növbəti səmti müəyyənetmə yarışı hər zaman olduğu kimi, bu dəfə də gərgin mübarizə şəraitində keçirildi. Yarışa qatılan bütün iştirakçılar və komandalar çox güclü idilər. Hiss olunurdu ki, hər bir komanda güclü hazırlaşıb. Yalnız mən ilk andan etibarən rəhbərlik etdiyim komandaya güvəndim və inandım. Bilirdim ki, onlar da mənim inamımı doğruldacaqlar. Beləliklə, onların əzmkarlığı və iradəsi sayəsində komandamız birinci yerə layiq görüldü. Əlbəttə, bu qələbə hər bir komanda üzvünün qələbəsidir. Hər biri böyük əziyyət çəkib. Yarışın kubokunu bizə qazandırdıqları üçün isə onlara dərin minnətdarlığımı bildirirəm".



"Bakı" yığma komandasının rəhbəri Rəşad Rzayev uğurlu nəticəyə görə qürurlandığını dedi. Bildirdi ki, yarış ilk gündən etibarən gərgin mübarizə şəraitində keçdi. Komandamız hərbi xəritə və kompasdan istifadə edərək, qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən vaxtında gəldi. Yarışın hər iki mərhələsində təyin olunmuş məsafəyə qaçış edən hərbçilərimiz bütün nəzarət məntəqələrini vaxtında aşkar etdilər. Yalnız cüzi xal hesabı ilə yarışı ikinci yerdə başa vurduq. Düzdür, bu heç də pis nəticə deyil. Çünki 8 komanda arasında ikinci yerə layiq görülmək asan deyil. Bu qələbə sevincini bizə yaşadan hər bir iştirakçıya təşəkkürümü bildirirəm. İnanıram ki, növbəti yarışlarda da uğurlar qazanacağıq".

Üçüncü yerdə qərarlaşan "Kəlbəcər" yığma komandasının rəhbəri mayor Tural Əhmədov öncə yarışın mahiyyətindən danışdı. Bildirdi ki, belə yarışlar hərbi qulluqçularımızın topoqrafik biliklərini təkmilləşdirərək, verilən koordinantları uyğun olaraq istənilən ərazini tapmaq, yaranmış vəziyyəti tez və dəqiq qiymətləndirmək qabiliyyətini artırır. Səmti müəyyənetmə yarışı iştirakçılarda diqqətçilik, dözümlülük, iradəlilik, çətin vəziyyətdə istiqamətlənmək kimi bir sıra xüsusiyyətləri mənimsəyir. Belə bir çətin yarışda bizim komanda üçüncü yerə layiq görüldü. Buna görə də komandamıza qalibiyyəti gətirən hər bir iştirakçımıza minnətdarlığımı bildirirəm. İnanıram ki, növbəti yarışlarda məhz bu komandamızla daha böyük uğurlara imza atacağıq".



**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan boksçuları II MDB Oyunlarını 10 medalla başa vurublar



Belarusda keçirilən II MDB Oyunlarında boks yarışlarına yekun vurulub.

Milli komandamız mötəbər turniri 10 medalla başa vurub. Komandamızın heyətində Aynur Mikayılova (54 kq), Məhəmmədəli Qasımzadə (60 kq), Ziya Həsənov (71 kq) və Fərhad Şeydayev (75 kq) gümüş medallara sahib olublar. Ömər Aslanlı (54 kq), Aslan Quliyev (63,5 kq), Lalə Mədətova (48 kq), Aysu İsmayılova (50 kq), Nərmin Əlizadə (52 kq) və Qızbəs İsgəndər (60 kq) isə milimizin aktivinə bürünc medallar yazdırıblar.

Yığmamız bu nəticə ilə komanda hesabında beşinci yeri tutub.

## Badmintonçularımız beynəlxalq turnirdə 3 medal qazanıblar



Azərbaycan badmintonçuları Tacikistanda keçirilən beynəlxalq turnirdə 1 gümüş və 2 bürünc medal qazanıblar.

Era Maftuha-Həcər Nuriyeva tandemi qadın badmintonçuların qoşa yarışında gümüş medal qazanıb. İlk görüşdə Qazaxıstanı təmsil edən rəqibləri korta çıxmadığından birbaşa yarımfinala vəsiqə qazanan badmintonçularımız bu mərhələdə özbəkistanlı idmançıya qalib gələrək finala yüksəlib. Era və Həcər qızıl medal uğrunda keçirilən qarşılaşmada Rutaparna Panda-Svetaparna Panda qoşasına iki setin yekununda məğlub olublar.

Badmintonçularımız Edi Reski Dviçayo və Keişa Fatimə Zəhra isə Tacikistanın Düşənbə şəhərində keçirilən "International" seriyalı beynəlxalq turnirdə 3-cü olublar.

Kişi badmintonçuların şəxsi yarışında mübarizəyə onaltıdabir finaldan başlayan Edi yarımfinala gedən yolda Qazaxıstan, Şri-Lanka və Hindistandan olan rəqiblərinə qalib gələrək ən güclü 4-lüyə yüksəlib. Edi finalın bir addımlığında Vyetnam badmintonçusu Le Duc Phata 0:2 hesabı ilə uduzub.

Eyni nəticəyə Keişa Fatimə Zəhra da imza atıb. Belə ki, qadın badmintonçuların şəxsi yarışında Kipr və Misir badmintonçularını mübarizədən kənarlaşdıran Keişa finala yüksəlmək uğrunda keçirilən görüşdə hindistanlı Anupama Upadhyaya 0:2 hesabı ilə məğlub olub.

## Avarçəkənlərimiz beynəlxalq turnirin iki qızıl medal qazanıb



Kayak və kanoe üzrə yeniyetmə və gənclərdən ibarət yığma komandamız Rusiyanın Barnaul şəhərində SSRİ İdman Ustası Konstantin Kostenkonun xatirəsinə həsr olunmuş beynəlxalq turnirdə iştirak edib.

Ona yaxın ölkədən olan idmançıların qatıldığı yarışda yığma komandamız böyük məşqçi Mirnazim Cavadovun rəhbərliyi ilə mübarizə aparıb.

İlk yarış günü avarçəkənlərimiz üçün uğurlu nəticə ilə yadda qalıb. Bir nəfərlik kayak qayığında on beş yaşadək idmançılar arasında 1000 metr məsafəyə yarışda Əlimurad Hacızadə bütün rəqiblərini qabaqlamaqla fəxri kürsün ən yüksək pilləsinə qalxıb. Eyni yaş kateqoriyasında iki nəfərlik kayak qayığında 500 metr məsafəyə mübarizə də təmsilçilərimizin qələbəsilə başa çatıb - Əlimurad Hacızadə və Vacib Babayev dueti ən yaxşı nəticə ilə xatirə turnirinin qalibi olub.

**AZƏRTAC-ın materialları əsasında**


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| mayor Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | baş leytenant Mahmud MÖHBALIYEV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 434 Nüsxə 4760 |